**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI**

**2026-cı ildə auditorların ixtisasartırma kurslarının**

# T Ə D R İ S   P R O Q R A M I

***(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2026-cı il 14 may tarixli 387/6 nömrəli qərarı ilə təsdiq edilmişdir)***


**Tərtib etdi:**
**Kadr hazırlığı idarəsinin rəisi** **E.Hacıyeva**

**Auditin transformasiyası, operativ tənzimləmə**
**və keyfiyyətin idarəedilməsi idarəsinin rəisi** **Q.Əhmədov**


**Bakı - 2026**

**Mündəricat:**

Giriş...................... ..............................................................................................................3
Tədris proqramının mövzuları.............................................................................................4
Tədrisin davamiyyət müddəti...............................................................................................8
İstifadə olunmuş ədəbiyyatın siyahısı...............................................................................9

# GİRİŞ

İqtisadi münasibətlərin genişlənməsi, maliyyə hesabatlılığının mürəkkəbləşməsi, rəqəmsallaşmanın sürətlənməsi və şəffaflıq tələblərinin artması auditor fəaliyyətinin əhəmiyyətini daha da yüksəltmişdir. Qlobal iqtisadi mühitdə maliyyə risklərinin, kibertəhlükəsizlik çağırışlarının, maliyyə fırıldaqları və uyğunluq risklərinin artması auditorlardan yalnız nəzəri bilik deyil, həm də beynəlxalq standartlara əsaslanan çevik və praktik peşə bacarıqları tələb edir. Bu baxımdan auditorların peşəkar bilik və bacarıqlarının mütəmadi olaraq təkmilləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və praktik fəaliyyətə inteqrasiyası zəruri tələb kimi formalaşır.

Azərbaycan Respublikasında auditor fəaliyyətinin keyfiyyətinin artırılması, beynəlxalq təcrübəyə uyğunlaşdırılması, maliyyə hesabatlarının etibarlılığının və şəffaflığının təmin olunması, habelə peşəkar standartların tətbiqinin genişləndirilməsi məqsədilə auditorların ixtisasartırma kurslarının təşkili xüsusi əhəmiyyət kəsb edir. Təqdim olunan Tədris Proqramı Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə İş Planının 7.1-ci “2026-cı il üzrə IFAC və ACCA-ın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə alınmaqla auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin hazırlanması” bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır.

Proqram Beynəlxalq Audit Standartlarının (BAS/ISA), Keyfiyyətin İdarə Edilməsi üzrə Beynəlxalq Standartların (ISQM), Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS/IFRS), Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), FATF tövsiyələrinin, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun, habelə audit, kibertəhlükəsizlik və informasiya texnologiyaları sahəsində beynəlxalq metodoloji sənədlərin tələbləri nəzərə alınmaqla tərtib edilmişdir.

Tədris proqramı çərçivəsində auditorlara audit prosesinin bütün mərhələləri üzrə praktiki biliklər, riskəsaslı audit yanaşmaları, auditin sənədləşdirilməsi, audit sübutlarının qiymətləndirilməsi, maliyyə fırıldaqları və uyğunluq risklərinin aşkarlanması, konsolidə edilmiş maliyyə hesabatlarının auditi, keyfiyyətə nəzarət mexanizmləri, informasiya texnologiyaları mühitində audit yanaşmaları, süni intellekt texnologiyalarının auditdə tətbiqi, kibertəhlükəsizlik risklərinin qiymətləndirilməsi, eləcə də auditor xidməti bazarında rəqabət və keyfiyyət problemləri üzrə kompleks nəzəri və praktiki yanaşmalar təqdim olunur.

Bu Tədris Proqramının əsas məqsədi auditorların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, beynəlxalq standartların düzgün və səmərəli şəkildə tətbiqinin təmin edilməsi, audit prosesində risklərin daha effektiv idarə olunması, auditin keyfiyyətinin artırılması və nəticə etibarilə maliyyə hesabatlarının etibarlılığına, şəffaflığına və auditor peşəsinə ictimai etimadın gücləndirilməsinə töhfə verməkdən ibarətdir.

*Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2026-cı il 14 may tarixli 387/6 nömrəli qərarı ilə təsdiq edilmişdir*

**2026-cı ildə auditorların ixtisasartırma kursunun**
**TƏDRİS PROQRAMININ MÖVZULARI**

Tədrisin davamiyyət müddəti, cəmi: 40 saat
o cümlədən:
Mühazirə: 21 saat
Praktiki məşğələ: 19 saat

**Mövzu 1. Beynəlxalq audit standartları ilə ümumi tanışlıq və tətbiq edilmə qaydaları**

**Məqsəd:** Auditorların beynəlxalq audit standartları üzrə biliklərini artırmaq və audit prosesinin əsas mərhələlərinin tətbiqini təmin etmək.

- auditin ümumi məqsədləri və auditorun məsuliyyəti;
- auditin planlaşdırılması və risk əsaslı yanaşma;
- audit sübutlarının yetərliliyi və uyğunluğu;
- müstəqil auditor hesabatının hazırlanması və təqdim edilməsi.

**Nəticə:** İştirakçılar auditin məqsəd və prinsiplərini izah edir, auditin planlaşdırılmasını həyata keçirir, audit sübutlarını qiymətləndirir və auditor hesabatını hazırlayır.

**Mövzu 2. Audit aparılan zaman audit faylının formalaşdırılması**

**Məqsəd:** Audit faylının və iş sənədlərinin beynəlxalq tələblərə uyğun şəkildə formalaşdırılması üzrə praktiki bacarıqların inkişaf etdirilməsi.

- audit faylının strukturu və məzmunu;
- iş sənədlərinin hazırlanması və sənədləşdirmə tələbləri;
- audit qovluğunun indeksləşdirilməsi və sistemləşdirilməsi.

**Nəticə:** İştirakçılar audit faylını strukturlaşdırır, iş sənədlərini düzgün tərtib edir, audit sübutlarını sənədləşdirir və audit qovluğunu sistemləşdirir.

**Mövzu 3. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və dələduzluq risklərinin auditi**

**Məqsəd:** ƏL/TMM, maliyyə fırıldaqları və haqsız rəqabət risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi üzrə auditorların praktiki bacarıqlarının inkişaf etdirilməsi.

- FATF tövsiyələrinin audit baxımından tətbiqi;
- şübhəli əməliyyatların müəyyən edilməsi üsulları;
- maliyyə fırıldaqları və onların audit göstəriciləri;

- gəlir və xərclərin təhrif edilməsi halları;
- risk indikatorları (“red flags”) və audit prosedurları.

**Nəticə:** İştirakçılar şübhəli əməliyyatları müəyyən edir, dələduzluq risklərini qiymətləndirir, risk indikatorlarını aşkar edir və audit prosedurlarını bu risklərə uyğun tətbiq edir.

**Mövzu 4. Konsolidə edilmiş maliyyə hesabatlarının auditi**

**Məqsəd:** Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə əsas prinsiplərin və prosedurların tətbiqi bacarıqlarının inkişaf etdirilməsi.

- konsolidə edilmiş maliyyə hesabatlarının mahiyyəti;
- qrup auditi üzrə risklərin qiymətləndirilməsi;
- komponent auditorların işinin əlaqələndirilməsi;
- qrupdaxili əməliyyatların audit prosedurları;
- auditor rəyinin formalaşdırılması.

**Nəticə:** İştirakçılar konsolidə edilmiş maliyyə hesabatlarını təhlil edir, qrup səviyyəli riskləri müəyyən edir, komponent auditorların işini qiymətləndirir və auditor rəyini formalaşdırır.

**Mövzu 5. Süni intellekt vasitəsi ilə auditin aparılması və kibertəhlükəsizlik**

**Məqsəd:** Azərbaycan Respublikasında auditor fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, maliyyə hesabatlarının etibarlılığının və şəffaflığının təmin olunması, habelə rəqəmsallaşma şəraitində yaranan yeni risklərin effektiv idarə olunması məqsədilə auditorların süni intellekt texnologiyalarının audit prosesində tətbiqi və kibertəhlükəsizlik sahəsində bilik və bacarıqlarının inkişaf etdirilməsi.

1. **Süni intellektin audit prosesində tətbiqi**
   - audit prosedurlarının avtomatlaşdırılması və optimallaşdırılması;
   - risklərin ilkin mərhələdə müəyyən edilməsi üçün analitik alətlərin tətbiqi;
   - süni intellekt əsaslı audit modellərinin yaradılması və istifadəsi.
2. **Böyük verilənlərin (Big Data) təhlili və idarə olunması**
   - böyük həcmli maliyyə məlumatlarının emalı və təhlili üsulları;
   - anomaliyaların və potensial pozuntuların aşkarlanması;
   - məlumatların keyfiyyətinin qiymətləndirilməsi və etibarlılığının təmin edilməsi.
3. **Kibertəhlükəsizlik risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi**
   - informasiya sistemlərində mövcud zəifliklərin aşkar edilməsi;
   - kibertəhlükələrin təsnifatı və audit baxımından qiymətləndirilməsi;
   - risk əsaslı yanaşma ilə təhlükələrin prioritetləşdirilməsi.
4. **Məlumatların qorunması və məxfilik prinsipləri**
   - məlumatların təhlükəsizliyinin təmin olunması mexanizmləri;

- məxfilik və məlumatların qorunması üzrə normativ tələblər;
- audit zamanı məlumatların təhlükəsiz istifadəsi qaydaları.

**Nəticə:** Proqramın nəticəsində auditorlar süni intellektin auditdə tətbiqi və kibertəhlükəsizlik risklərinin idarə olunması üzrə əsas bilik və bacarıqlara yiyələnir, rəqəmsal mühitdə riskləri daha effektiv müəyyən edib qiymətləndirə bilirlər. Bu isə auditor fəaliyyətinin keyfiyyətinin yüksəlməsinə, maliyyə hesabatlarının etibarlılığının və şəffaflığının artırılmasına xidmət edir.

**Mövzu 6. Auditin keyfiyyətinin idarə edilməsində riskəsaslı yanaşma**

**Məqsəd:** Auditin keyfiyyətinin idarə edilməsində riskəsaslı yanaşma auditor təşkilatının fəaliyyətində keyfiyyətə təsir göstərə biləcək risklərin əvvəlcədən müəyyən edilməsi, qiymətləndirilməsi və idarə olunmasına yönəlmiş sistemli yanaşmadır. Bu yanaşma audit prosesində "hamıya eyni nəzarət" modelindən fərqli olaraq, resursların daha yüksək risk daşıyan sahələrə yönəldilməsini təmin etməklə auditin effektivliyinin, keyfiyyətinin və etibarlılığının artırılmasına xidmət edir.

Riskəsaslı yanaşma aşağıdakı beynəlxalq standartların tələblərinə əsaslanır:

- ISQM 1 – Keyfiyyət risklərinin idarə olunması sistemi;
- ISQM 2 – Tapşırıq üzrə keyfiyyətə nəzarətin nəzərdən keçirilməsi.

1. Keyfiyyət riskləri anlayışı
- auditin keyfiyyətinə mənfi təsir göstərə biləcək amillər;
- risklərin daxili və xarici mənbələri;
- keyfiyyət risklərinin növləri və xüsusiyyətləri.

2. Risklərin müəyyən edilməsi (identifikasiya)
- audit prosesinin mərhələləri üzrə risklərin aşkarlanması;
- müştəri, audit qrupu və fəaliyyət mühitinin təhlili;
- əvvəlki audit nəticələrinin və müşahidələrin nəzərə alınması.

3. Risklərin qiymətləndirilməsi
- risklərin ehtimal və təsir dərəcəsinin müəyyən edilməsi;
- risklərin prioritetləşdirilməsi (yüksək, orta və aşağı risklər);
- əhəmiyyətli risklərin seçilməsi və qiymətləndirilməsi.

4. Risklərə cavab tədbirləri
- nəzarət mexanizmlərinin gücləndirilməsi;
- əlavə audit prosedurlarının tətbiqi;
- təcrübəli auditorların və ekspertlərin cəlb edilməsi;
- vaxt və resursların risklərə uyğun bölüşdürülməsi.

5. Monitorinq və yenidən qiymətləndirmə
- risklərin davamlı izlənilməsi;

- yeni risklərin müəyyən edilməsi;
- keyfiyyətin idarə olunması sisteminin təkmilləşdirilməsi;
- tətbiq olunan nəzarət mexanizmlərinin effektivliyinin qiymətləndirilməsi.

**Nəticə:** Mövzunun sonunda iştirakçılar auditin keyfiyyətinin idarə edilməsində riskəsaslı yanaşmanın beynəlxalq standartlara uyğun tətbiqi üzrə nəzəri və praktiki biliklər əldə edir, audit risklərini daha sistemli və effektiv şəkildə idarə etmək, keyfiyyət pozuntularının qarşısını vaxtında almaq və təqdim olunan auditor rəyinin etibarlılığını artırmaq bacarıqlarını inkişaf etdirirlər.

**Mövzu 7. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)**

**Məqsəd:** Auditorların peşə etikası, müstəqillik və peşəkar davranış prinsipləri üzrə biliklərinin təkmilləşdirilməsi və etik risklərin idarə olunması bacarıqlarının inkişaf etdirilməsi.

- Fundamental etik prinsiplər;
- Auditorun müstəqilliyivə obyektivliyi;
- Etik təhdidlər və qoruyucu tədbirlər;
- Peşəkar davranış qaydaları;
- Məxfilik və peşəkar məsuliyyət.

**Nəticə:** İştirakçılar etik prinsipləri praktik fəaliyyət zamanı tətbiq edir, etik riskləri qiymətləndirir və auditor müstəqilliyinin qorunmasını təmin edirlər.

**Mövzu 8. Vergi və əmək qanunvericiliyində edilmiş son dəyişikliklər**

**Məqsəd:** Vergi Məcəlləsi, Əmək Məcəlləsi və əlaqəli normativ hüquqi aktlarda edilmiş son dəyişikliklər barədə auditorların məlumatlandırılması və praktiki tətbiq bacarıqlarının artırılması.

- Vergi qanunvericiliyində edilmiş dəyişikliklər;
- Əmək qanunvericiliyində edilmiş yeniliklər;
- Vergi və əmək münasibətlərində riskli məqamlar;
- Audit zamanı qanunvericilik dəyişikliklərinin nəzərə alınması.

**Nəticə:**İştirakçılar qanunvericilikdə edilmiş son dəyişiklikləri audit prosesində düzgün tətbiq edir və hüquqi riskləri qiymətləndirirlər.

**Mövzular üzrə tədrisin davamiyyət müddəti:**

| Sıra №-si | Mövzunun adı | Cəmi (saat) | o cümlədən: Mühazirə (saat) | Praktiki məşğələ (saat) | Qiymət-ləndirmə (saat) |
|---|---|---|---|---|---|
| 1. | Beynəlxalq audit standartları ilə ümumi tanışlıq və tətbiqedilmə qaydaları | 6 | 2 | 4 | - |
| 2. | Audit aparılan zaman audit faylının formalaşdırılması | 6 | 4 | 2 | - |
| 3. | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və dələduzluq risklərinin auditi | 4 | 2 | 2 | - |
| 4. | Konsolidə edilmiş maliyyə hesabatlarının auditi | 6 | 2 | 4 | - |
| 5. | Süni intellekt vasitəsi ilə auditin aparılması və kibertəhlükəsizlik | 4 | 2 | 2 | - |
| 6. | Auditin keyfiyyətinin idarə edilməsində riskəsaslı yanaşma | 6 | 4 | 2 | - |
| 7. | Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) | 6 | 4 | 2 | - |
| 8. | Vergi və əmək qanunvericiliyində edilmiş son dəyişikliklər | 2 | 1 | 1 | - |
| - | Yekun qiymətləndirmə: kurs ərzində öyrənilmiş biliklərin test və praktiki tapşırıqlarla yoxlanılması | 2 | - | - | 2 |
| | **Yekunu:** | **42** | **21** | **19** | **2** |

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu; https://e-qanun.az/framework/9020
2. “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnamə; https://e-qanun.az/framework/10537
3. Beynəlxalq Audit Standartları (ISA – International Standards on Auditing); https://www.ifac.org/knowledge-gateway/supporting-international-standards/discussion/international-standards-auditing
4. ISA 200 – Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması https://www.ifac.org/system/files/publications/files/ISA-200.pdf
5. ISA 230 – Auditin sənədləşdirilməsi; https://www.ifac.org/system/files/publications/files/ISA-230.pdf
6. ISA 240 – Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti; https://www.ifac.org/system/files/publications/files/ISA-240.pdf
7. ISA 300 – Maliyyə hesabatlarının auditinin planlaşdırılması; https://www.ifac.org/system/files/publications/files/ISA-300.pdf
8. ISA 315 – Müəssisə və onun mühitinin öyrənilməsi əsasında əhəmiyyətli təhriflər riskinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi; https://www.ifac.org/system/files/publications/files/ISA-315-Revised-2019.pdf
9. ISA 330 –Qiymətləndirilmiş risklərə qarşı auditorların cavab tədbirləri; https://www.ifac.org/system/files/publications/files/ISA-330.pdf
10. ISA 500 – Audit sübutu; https://www.ifac.org/system/files/publications/files/ISA-500.pdf
11. ISA 600 – Xüsusi mülahizələr-qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi); https://www.ifac.org/system/files/publications/files/ISA-600.pdf
12. ISA 700 – Maliyyə hesabatları haqqında auditor rəyinin formalaşdırılması və hesabat verilməsi; https://www.ifac.org/system/files/publications/files/ISA-700-Revised.pdf
13. ISQM 1 – Keyfiyyətin idarə olunması sistemi; https://www.ifac.org/system/files/publications/files/ISQM-1.pdf

14. ISA 220 – Maliyyə hesabatları auditinin keyfiyyətinə nəzarət;
https://www.ifac.org/system/files/publications/files/ISA-220-Revised.pdf
15. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə);
https://www.ethicsboard.org/publications/international-code-ethics-professional-accountants
16. FATF Tövsiyələri (AML/CFT);
https://www.fatf-gafi.org/en/publications/Fatfrecommendations/Fatf-recommendations.html
17. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə haqqında AR Qanunu;
https://e-qanun.az/framework/13527
18. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (IFRS);
https://www.ifrs.org/issued-standards/list-of-standards/
19. NIST Cybersecurity Framework;
https://www.nist.gov/cyberframework
20. COBIT (IT idarəetmə çərçivəsi);
https://www.isaca.org/resources/cobit
21. Auditorlar Palatasının rəsmi internet səhifəsi (metodik materiallar və qərarlar);
https://www.audit.gov.az
22. “Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflər barədə Auditorlar Palatasının 2025-ci il 13 avqust tarixli 378/3 nömrəli Şura Qərarı;
https://www.audit.gov.az
23. “Haqsız rəqabətə qarşı mübarizə sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflərin reallaşdırılmasına dair Tədbirlər Planı”nın təsdiq edilməsi barədə Auditorlar Palatasının 2025-ci il 03 noyabr tarixli 381/3 nömrəli Şura Qərarı.
https://www.audit.gov.az
24. “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu;
https://e-qanun.az/framework/19675
25. Azərbaycan Respublikasının Vergi Məcəlləsi;
https://e-qanun.az/code/12
26. Azərbaycan Respublikasının Əmək Məcəlləsi;
https://e-qanun.az/framework/46943